# "ELM" NƏŞRİYYATI ELMİ ARAŞDIRMALARIN PREDMETİ KİMİ

**Ellada Balayeva**

*BDU, Kitabşünaslıq və Nəşriyyat işi kafedrasının dissertantı*

Kitab nəşri işinin yaxşılaşdırılması Azərbaycan dövlətinin daim diqqət mərkəzində olmuşdur. Hazırda ölkəmizdə geniş nəşriyyat şəbəkəsi mövcuddur ki, onlardan biri də Azərbaycan Respublikası Elmlər Akademiyası sistemində fəaliyyət göstərən "Elm" nəşriyyatıdır. 1945-ci ildə Azərbaycan Respublikası Elmlər Akademiyasının nəzdində yaradılmış "Elm" nəşriyyatı yalnız ayrı-ayrı elm sahələrinin inkişafına deyil, həm də bütovlükdə ölkəmizdə kitab nəşrinin yüksəlişinə əhəmiyyətli töhfələr vermişdir. "Elm" nəşriyyatı öz fəaliyyəti dövründə kitab nəşri sahəsində təqdir olunmağa, öyrənilməyə layiq zəngin təcrübə qazanmışdır.

"Elm" nəşriyyatının fəaliyyətinin ayrı-ayrı aspektləri görkəmli alim və tədqiqatçıların sanballı elmi əsərlərində qismən araşdırılmışdır. Lakin tədqiq edilən mövzu Azərbaycan kitabşünaslığında kifayət qədər işlənməmişdir.

XX əsrin ikinci yarısında və XXI əsrin əvvəllərində professorlar Əziz Mirəhmədov, Abuzər Xələfov, Bayram Allahverdiyev, İsmayıl Vəliyev, dosentlər Hacı Həsənov, Knyaz Aslan və başqaları öz elmi tədqiqat əsərlərində "Elm" nəşriyyatının fəaliyyətinə müəyyən qədər yer ayırmışlar.

Bu baxımdan Kitabşünas alim Hacı Həsənovun "Azərbaycanda kitab nəşri işinin təşkili (1920-1930-cu illər)" mövzusunda namizədlik dissertasiyasında, eləcə də "Azərbaycan kitabının inkişaf mərhələləri" adlı monoqrafiyasında digər nəşriyyatlarla yanaşı "Elm" nəşriyyatının fəaliyyətinə də müəyyən yer ayrılmış, onun inkişaf yolları təhlil edilmişdir.

"Elm" nəşriyyatının kitabçılıq işində qazandığı nailiyyətlər tarix elmləri doktoru, professor Bayram Allahverdiyevin bir sıra elmi əsərlərində, monoqrafiyalarında, kitablarında "təhlil edilmiş, xüsusilə alimin "Kitabşünaslığın əsasları" monoqrafiyasında sahəvi ədəbiyyatın və kitabın tipologiyasında nəşriyyatın rolu, kitab nəşri, istehsalı və yayılması sahəsindəki fəaliyyəti işıqlandırılmışdır.

A.Ələkbərovun rus dilində çap etdirdiyi "Azərbaycanda kitab nəşrinin inkişaf mərhələləri" kitabında, xüsusilə "Müharibədən sonrakı dövrdə Azərbaycan SSR-də kitab nəşri işi (1946-1970-ci illər)" adlı dissertasi-

ya işində "Elm" nəşriyyatının fəaliyyətinə müəyyən qədər yer ayrılmışdır.

2018-ci ildə çapdan çıxmış "Nəşriyyat işi və redaktə məsələləri" adlı dərs vəsaitində dosent Knyaz Aslan "Elm" nəşriyyatının fəaliyyəti haqqında xülasə şəklində ümumi məlumat vermişdir.

Lakin bütövlükdə bu əsərlərdə "Elm" nəşriyyatının fəaliyyəti haqqında əsaslı elmi ümumiləşdirilmələr, təhlillər aparılmamışdır. Uzun illər ərzində "Elm" nəşriyyatı tərəfindən toplanılmış böyük təcrübə müasir şəraitdə prioritet istiqamət kimi müxtəlif elm sahələri üzrə kitab nəşrinə dövlət dəstəyi proqramının reallaşdırması üçün mühüm əhəmiyyət kəsb edir.

Beləliklə, müasir şəraitdə bu mövzunun aktuallığı, onunla əlaqədar bir çox məsələlərin kifayət qədər işlənilməməsi "Elm" nəşriyyatının yaranması və inkişafı tarixinin daha əhatəli və kompleks şəkildə araşdırılmasını zərurətə çevirir. Azərbaycan Respublikasının nəşriyyat sistemində həmin nəşriyyatın yerinin və rolunun müəyyənləşdirilməsi, ölkəmizdə elmi ədəbiyyatın inkişafına təsirinin öyrənilməsi, təşkilati-idarəetmə məsələlərinin geniş təhlilinin verilməsi, müasir elmi ədəbiyyat bazarının modelləşdirilməsinə konseptual yanaşmalar əsasında sosioloji tədqiqatların işlənib hazırlanması və onların nəticələrinin təhlilə cəlb olunması hazırda mühüm aktuallıq kəsb edir.